*Arda və Arasa, sizə olan borcumun çox azı olsa da. – D.A.*

*Adrian və Tulioya, mənim üçün keçmiş, sizin üçün gələcək. – J.R.*

Daron Acemoğlu və Ceyms A. Robinsonun "Dar Dəhliz" kitabı azadlığın əldə olunması və qorunması üçün dövlət hakimiyyəti ilə cəmiyyət gücü arasında zəruri olan incə tarazlığı araşdırır. Müəlliflər iddia edirlər ki, azadlıq təbii hal deyil, nadir bir nailiyyətdir və bu, güclü dövlətlə fəal cəmiyyət arasında davamlı dialoqu tələb edir.

Kitab "dar dəhliz" metaforasını təqdim edir və azadlıq, sabitlik və rifahın inkişafına imkan verən dövlət və cəmiyyətin tarazlıqda bir araya gəldiyi bir məkanı təsvir edir. Müəlliflər qədim Afina, Moğol İmperiyası və müasir demokratiyalar kimi müxtəlif cəmiyyətlərdən tarixi və müasir nümunələrlə öz nəzəriyyələrini izah edirlər.

Bu düşündürücü əsər göstərir ki, dövlət hakimiyyətinin həddindən artıq olması tiranlığa, çox az olması isə anarxiyaya səbəb olur. Dərin təhlil və maraqlı hekayələrlə zəngin olan "Dar Dəhliz" oxucuları müxtəlif mədəni və siyasi kontekstlərdə azadlığın necə qorunması, itirilməsi və bərpa olunması barədə düşünməyə dəvət edir.

Tarix, siyasi elm və sosiologiya sahələrinə marağı olan oxucular üçün bu kitab idarəetmənin mürəkkəb dinamikasını və azadlıq uğrundakı davamlı mübarizəni başa düşmək üçün əhatəli bir çərçivə təqdim edir.

# MÜNDƏRİCAT


Ön söz 11

FƏSİL 1 – TARİX NECƏ SONA ÇATIR? 21

FƏSİL 2 – QIRMIZI KRALİÇA 63

FƏSİL 3 – HAKİMİYYƏT İSTƏYİ 118

FƏSİL 4 – DƏHLİZ XARİCİNDƏ İQTİSADİYYA 147

FƏSİL 5 – YAXŞI İDARƏETMƏ ÜÇÜN 185

FƏSİL 6 – AVROPA QAYÇILARI 218

FƏSİL 7 – SƏMAVİ SƏLAHİYYƏT 280

FƏSİL 8 – SINDIRILMIŞ QIRMIZI KRALİÇA 326

FƏSİL 9 – ŞEYTAN TƏFƏRRÜATLARDA 363

FƏSİL 10 – FERQUSONDA NƏ YOLUNDA DEYİL? 412

FƏSİL 11 – KAĞIZ LEVİAFAN 458

FƏSİL 12 – VƏHHABIN UŞAQLARI 499

FƏSİL 13 – QIRMIZI KRALİÇA NƏZARƏTDƏN ÇIXIR 525

FƏSİL 14 – DƏHLİZƏ GİRİŞ 574

FƏSİL 15 – LEVİAFANLA YAŞAMAQ 623

Təşəkkür 667

Biblioqrafik Esse 670

Xəritələrin Mənbələri 711

Mənbələr 713

Fotoalbom Üçün İstinadlar 744

# ÖN SÖZ

## Azadlıq

Bu kitab azadlıq haqqındadır. Onu bəzi cəmiyyətlərin necə qazandığı, bəzi cəmiyyətlərin isə niyə əldə edə bilmədiyi haqqındadır. Həmçinin azadlığın doğurduğu nəticələr, xüsusən də iqtisadi inkişaf haqqındadır. Azadlığa tərif verərkən ingilis filosof Con Lokkun izi ilə getdik:

> İnsanlar... heç kimdən icazə almadan və başqasının iradəsindən asılı olmadan... öz istəklərinə uyğun hərəkət edib, mal-mülkləri və şəxsiyyətlərinə dair lazım bildikləri şəkildə sərəncam verə bilirlərsə... azaddırlar.

Bu mənada azadlıq – bütün insanların ən böyük arzusudur.

Lokk xüsusilə qeyd edir ki, heç kim başqasının həyatına, sağlamlığına, azadlığına və malına zərər verməməlidir.

Aydındır ki, bu cür azadlığa tarixdə nadir halda rast gəlinir və bu gün də vəziyyət fərqli deyil. Hər il Yaxın Şərq, Afrika, Asiya və Mərkəzi Amerikada milyonlarla insan öz evlərini tərk edib həyatlarını təhlükəyə atır. Bunun səbəbi onların daha yüksək gəlir və ya daha yaxşı maddi imkanlar axtarması deyil, özlərini və ailələrini zorakılıq və dəhşətdən qorumağa çalışmasıdır.

Filosoflar azadlığa müxtəlif təriflər veriblər. Lakin Lokkun da hesab etdiyi kimi, ən fundamental səviyyədə azadlıq – zorakılıq, təhdid və insan ləyaqətini alçaldan digər amillərin yoxluğundan başlayır. İnsanlar öz həyatlarını əsassız cəzalar, yaxud sərt sosial qadağaların qorxusu altında deyil, azad şəkildə qura bilməlidirlər.

## Dünyanın ən böyük şəri

2011-ci ilin yanvar ayında Suriyanın paytaxtı Dəməşqin qədim məhəlləsində yerləşən Harika bazarında Bəşər Əsədin despotik rejiminə qarşı coşqun etirazlar baş verdi. Bundan bir az sonra Suriyanın cənubundakı Daraa şəhərində divarlara "Xalq hökumətin istefasını tələb edir" şəklində şüarlar yazan yeniyetmələr həbs edilib işgəncəyə məruz qaldılar. Etirazlar başladı və polis şöbəsi binasının qarşısında toplanmış kütlə uşaqların azad olunmasını tələb etdi. Polislərin müdaxiləsi zamanı iki nümayişçi güllə yarasından öldü. Bu isə qısa müddətdə bütün ölkəni bürüyən kütləvi iğtişaşlara səbəb oldu. İnsanların əksəriyyəti hökumətin devrilməsini istəyirdi. Çox keçmədən Vətəndaş müharibəsi başlandı. Dövlət, ordu və təhlükəsizlik qüvvələri ölkənin böyük hissəsində fəaliyyət göstərmirdi. Suriyalılar azadlıq əvəzinə vətəndaş müharibəsi və nəzarətdən çıxan zorakılıqla qarşılaşdılar.

> Latakiyada mətbuat koordinatoru olan Adam daha sonra baş verənlər haqqında belə dəyəcəkdi:
>
> Biz mükafat alacağımızı düşünürdük, amma nəticədə əlimizə keçən dünyanın ən böyük şəri oldu.
>
> Hələbli dramaturq Hüseynin şərhi isə belə idi:
>
> İndi nəzarəti ələ keçirən bu qaranlıq qrupların Suriyaya soxula biləcəyini gözləmirdik.

Bu "qaranlıq qruplar"ın ən məşhuru "İslam Dövləti" (İŞİD) adlanan və yeni İslam Xilafəti qurmaq istəyən qrup idi. İŞİD 2014-cü ildə

Suriyanın iri şəhərlərindən Rakkanın nəzarətini ələ keçirdi. Suriya sərhədinin o tayında, yəni İraqda islamçılar Fəllucə, Ramadi və 1,5 milyon əhalisi olan tarixi Mosul şəhərini işğal etdilər. İŞİD və digər silahlı qruplar Suriya və İraq hökumətlərinin zəifliyi ucbatından yaranmış boşluğu ağlasığmaz qəddarlıqla doldurdular. Döymək, baş kəsmək, işgəncə vermək və şikəst etmək adi hala çevrildi. Azad Suriya Ordusunda döyüşçü olan Əbu Firas Suriyadakı "yeni norma"nı belə təsvir edir:

> "Kiminsə təbii səbəblərdən öldüyünü çoxdandır eşitmirəm. Əvvəlcə həftədə bir-iki nəfəri öldürürdülər. Sonra bu rəqəm iyirmiyə qalxdı. Sonra əlli oldu. Sonra da normaya çevrildi. Əlli adam itirdiyimiz zaman belə düşünürdük: "Allaha şükür, cəmi əlli nəfər!" Bomba və ya güllə səsləri eşitməsəydim, yata bilmirdim. Sanki nə isə çatışmırdı".
>
> Hələbli fizioterapevt Amin o günləri belə xatırlayır:
>
> Oğlanlardan biri sevgilisinə zəng edib dedi: "Əzizim, mən bir neçə dəqiqəliyə gedirəm. Sənə sonra Aminin telefonundan zəng edəcəyəm". Bir az sonra sevgilisi zəng edib onu soruşdu. Onun öldürüldüyünü dedim. Qız ağlamağa başladı. Dostlarım məndən soruşdular: "Niyə ona dedin?" Cavab verdim: "Çünki bu, həqiqətdir. Bu normaldır. O ölüb..." Telefonumu açıb "əlaqə bağlantımda" olan nömrələri gözdən keçirəndə cəmi bir-iki nəfərin sağ qaldığını anladım. Bizə deyirdilər: "Əgər kimsə ölsə, onun nömrəsini silməyin. Sadəcə adını dəyişib Şəhid yazın". Əlaqələr siyahısını açdıqda ancaq "Şəhid", "Şəhid", "Şəhid" görürdüm....

Suriya dövlətinin süqutu son dərəcə böyük bir humanitar fəlakətə yol açdı. Təxminlərə görə, müharibədən əvvəl ölkədə yaşayan 18 milyon insandan 500 mini həyatını itirdi. 6 milyondan çox insan ölkə daxilində öz evlərini tərk etməli oldu. 5 milyon insan isə ölkədən qaçıb getdi və hal-hazırda qaçqın olaraq yaşayır.

## Gilgameş problemi

Əslində Suriya dövlətinin süqutu ilə ortaya çıxan fəlakət təəccüblü deyil. Uzun müddətdir ki, filosoflar və sosioloqlar münaqişələrin həlli, qanunların yerinə yetirilməsi və zorakılığın məhdudlaşdırılması üçün dövlətin zəruri olduğunu irəli sürürlər. Lokkun dediyi kimi:

> "Qanunun olmadığı yerdə azadlıq da yoxdur".

Bununla belə, suriyalılar bəzi azadlıqları qazanmaq üçün Əsədin avtokratik rejiminə qarşı etiraz etməyə başlamışdılar. Adam o günləri kədərlə xatırlayır:

> "Qəribədir... Korrupsiya və cinayətkarlığın, şər və insanların çəkdiyi əzabın kökünü kəsmək üçün nümayişə çıxmışdıq, amma nəticədə daha çox insan əziyyət çəkməli oldu".

Adam və digər suriyalıların qarşıladığı bu problem çox qədim və insan cəmiyyəti üçün tipikdir. 4200 il əvvəl Şumer gil lövhələrində yazılmış və bu günə qədər gəlib çatmış ən qədim mətnlər arasında yer alan "Gilgameş Dastanı"nın da mövzusu budur. Gilgameş müasir İraqın cənubunda yerləşən Fərat çayının çoxdan qurumuş bir qolunun sahilində salınan və bəlkə də, dünyanın ilk şəhəri olan Urukun şahı idi. Dastanda Gilgameşin bütün əhaliyə ictimai xidmətlər göstərilən və ticarət sayəsində inkişaf edən çox gözəl bir şəhərin hökmdarı olduğu deyilir:

> Bax, qala divarları günəşdə necə mis kimi parıldayır. Daş pillə-kənlə qalx... Urukun divarları boyunca get, şəhərin ətrafını gəz, güclü təməllərini, kərpic hörgülərini gözdən keçir. Onların necə ustalıqla inşa edildiyini gör. Şəhərin genişliyinə, möhtəşəm saray və məbədlərə, dükan və bazarlara, evlərə, meydanlara tamaşa et.

Amma yenə də bəzi problemlər vardı:

> Kim Gilgameş kimi ola bilər?.. Şəhərin sahibi odur. Küçələrində təkəbbürlə, başını dik tutaraq addımlayır, şəhər sakinlərini vəhşi öküz kimi əzib keçir. O şahdır, nə istəsə edər, atadan oğlunu alar və ona işgəncə verər, anadan qızını alar və ondan istifadə edər... Heç kim ona qarşı çıxmağa cəsarət etməz.

Gilgameş nəzarətdən çıxmışdı, haqq-divan tanımırdı, bir az Suriyanın Əsədinə bənzəyirdi. Çarəsiz olan xalq "Göylərin Tanrısı", Şumer tanrılarının panteonundakı baş tanrı Anuya səslənirdi. Onlar yalvarırdılar:

> Ey cənnətdəki atamız! Gilgameş həddini aşdı. İnsanlar onun zülmündən əziyyət çəkirlər... sən şahın belə idarə etməsini istəyirsən? Çoban da öz sürüsünü parçalayarmı?

Anu bu şikayətləri eşidib yaradılışın anası Arurudan bəzi şeylər xahiş etdi:

> Gilgameşin əkizini, gücünə, cəsarətinə və coşqun ürəyinə görə ona bərabər olan bir insanı, onun ikinci "mən"ini yarat. Yeni bir qəhrəman yarat və qoy, onlar bir-birini elə mükəmməl şəkildə tarazlasınlar ki, Uruk rahatlıq və dinclik tapsın.

Beləcə "Gilgameş problemi" həll edildi: dövlətin gücünü və təsirini elə tarazlaşdırmaq lazımdır ki, o zərər yox, fayda versin. Anunun təklif etdiyi "əkiz" həllini bu gün nəzarət və tarazlıq mexanizmi adlandırırlar. Gilgameşə onun əkizi Enkidu nəzarət edəcəkdi. ABŞ dövlət sisteminin banilərindən biri olan Ceyms Medison, yəqin ki, bunu təqdir edərdi. Gilgameşdən 4000 il sonra o bildirirdi: konstitusiyaları elə hazırlamaq lazımdır ki, "Ambisiyalar digər ambisiyaları tarazlaşdırsın".

Gilgameş təzə gəlin köçmüş bir qızın namusuna təcavüz etmək istəyərkən öz əkizi ilə ilk dəfə üz-üzə gəldi. Enkidu evin girişini tutub ona yol vermədi. Dava etməyə başladılar. Sonda Gilgameş qalib gəlsə də onun rəqibsiz və despotik hakimiyyətinə son qoyuldu. Bəs bu dava Urukda azadlıq toxumlarının səpilməsinə səbəb oldumu?

Təəssüf ki, yox. Yuxarıdan endirilən nəzarət və tarazlıq mexanizmləri adətən işləmir. Urukda da işləmədi. Gilgameş və Enkidu razılığa gəldilər. Dastanda deyilir:

> "Qucaqlaşıb öpüşdülər. Qardaş kimi əl-ələ tutdular. Yan-yana addımladılar. Yaxın dost oldular".

Bir müddət sonra Gilgameş ilə Enkidu Livandakı böyük sidr meşələrinin mühafizəçisi yırtıcı Humbabanı öldürmək üçün əlbir oldular. Tanrılar onları cəzalandırmaq üçün Cənnət Öküzünü göndərdikdə dostlar onu birlikdə öldürdülər. Urukda azadlıq ümidi ilə yanaşı nəzarət və tarazlıq mexanizmi də yox oldu.

Əkizlərin dostluq və əlbirliyi, yaxud nəzarət və tarazlıq mexanizmlərinə sahib olan dövlət azadlıq gətirməyəcəksə, bəs onu nə gətirəcək? Əlbəttə ki, "o nə?" Əsədin rejimi deyil. Amma bu rejimin süqutundan doğan anarxiya da azadlıq gətirməyəcək.

Bizim cavabımız sadədir: azadlıq üçün dövlət və qanunlar lazımdır. Amma azadlıq dövlət və ya ona nəzarət edən elitalar tərəfindən verilən bir şey deyil. Azadlığı sıravi vətəndaşlar, bütünlükdə cəmiyyət qazanır. Cəmiyyət dövlətə nəzarət edərək, 2011-ci ildə Suriyada azadlığı boğan Əsədin əksinə, dövlətin azadlığı müdafiə etməsinə və hətta genişləndirməsinə nail olmalıdır. Azadlıq üçün – siyasətdə iştirak edən, lazım olduqda etirazını bildirən və hökuməti seçkilərdə səsvermə yolu ilə yıxan güclü cəmiyyət lazımdır.

## Azadlığa açılan dar dəhliz

Bu kitabdakı arqumentimiz azadlığın yaranması və çiçəklənməsi üçün həm dövlətin, həm də cəmiyyətin güclü olmasını irəli sürür. Zorakılığa mane olmaq, qanunların yerinə yetirilməsini təmin etmək və insanlara öz məqsədlərinə çatmaqda həyati əhəmiyyət daşıyan ictimai xidmətləri göstərmək üçün güclü dövlətə ehtiyac var. Dövləti cilovlamaq və ona nəzarət etmək üçün isə güclü və fəal cəmiyyət lazımdır. Əkizlər, yaxud

nəzarət və tarazlıq mexanizmləri Gilgameş probleminin həlli üçün kifayət etməz, çünki sayıq cəmiyyət olmadan konstitusiyalar və verilən zəmanətlər onların yazıldığı perqament və ya kağız parçasından heç də qiymətli deyil.

Azadlığa aparan dar dəhliz – bir tərəfdən despotik dövlətlərin yol açdığı qorxu və depressiyalar, digər tərəfdən isə dövlətin yoxluğu nəticəsində ortaya çıxan zorakılıq və qanunsuzluğun arasından keçir. Məhz bu dəhlizdə dövlət və cəmiyyət bir-birini tarazlaşdırır. Tarazlıq ani və inqilabi dəyişikliklə baş vermir. Bu iki qüvvə arasında daim və hər gün gedən mübarizə zamanı ortaya çıxır. Həmin mübarizə hər iki qüvvə üçün də faydalıdır: dar dəhlizdə dövlət və cəmiyyət sadəcə rəqabət aparmır, eyni zamanda əməkdaşlıq da edir. Bu əməkdaşlıq dövlətə cəmiyyətin ehtiyac duyduğu xidmətləri həyata keçirmək üçün daha çox imkan verir. Digər tərəfdən isə cəmiyyəti dövlətə nəzarət üçün daha fəal olmağa təşviq edir.

Bu niyə adi bir "qapı" deyil, məhz "dəhliz"dir? Çünki, azadlığı qazanmaq prosesdir. Zorakılığın nəzarət altına alınması, qanunların yazılması, yerinə yetirilməsi və dövlətin öz vətəndaşlarına sosial xidmətlər göstərməsindən öncə dar dəhlizdə uzun yol getmək lazımdır. Bu bir prosesdir, çünki dövlət və elitalar cəmiyyətin onlara vurduğu qandallarla yaşamağı, cəmiyyətin müxtəlif təbəqələri isə, aralarındakı fərqlərə baxmayaraq, birlikdə işləməyi öyrənməlidir.

Bu dəhliz niyə dardır? Çünki, azadlığa nail olmaq asan məsələ deyil. Nəhəng bürokratiyası, güclü ordusu və qanunları istədiyi kimi müəyyən etmək imkanı olan bir dövləti necə cilovlamaq olar? Qarışıqlığın hökm sürdüyü bir dünyada daha çox məsuliyyət daşıması tələb edilən dövlətin eyni zamanda cəmiyyətin nəzarəti altında qalacağına necə zəmanət vermək olar? Cəmiyyətin müxtəlif təbəqələrinin bir-biriylə mübarizə aparması əvəzinə əməkdaşlıq etməsinə necə nail olmaq olar? Bütün bunların sıfır xalla bitən bir yarışa çevrilməsinə necə mane olmaq olar? Bu şərtləri təmin etmək heç də asan deyil. Buna görə də dəhliz dardır. Dəhlizə giriş və çıxış isə cəmiyyət üçün böyük və uzağa gedən nəticələr doğurur.